# Burulğan: yaddaşın mühakiməsi

"Azərbaycan xalqının həqiqi faciəsi isə 1936-cı ildən başlandı. Xalq əleyhinə, xüsusilə ziyalılar əleyhinə cəza tədbirləri 1937-1938-ci illərdə daha da amansızlaşdı, hakimiyyətdə oturmuş dövlət quldur dəstəsi görünməmiş vəhşiliklə Sumbatovun, Borşevin, Gerasimovun, Sinmanın, Şerin, Qriqoryanın, Markaryanın, Qalstyanın, Ohanesyanın, Avanesyanın və qeyrilərinin əli ilə təxminən 70-80 min Azərbaycan ziyalı nümayəndəsi - alim, yazıçı, artist, müəllim, gənc, din xadimi, sovet və partiya idarəsi əməkdaşı, hərbçi, bir sözlə, bütün düşünən beyinlər, qeyri-adi təfəkkür sahibləri bir ucdan məhv edildilər. Tək bircə xarici dil bilən şəxsləri də qırırdılar. Ölüm və cəza maşını dayanacaqsız və fasiləsiz işləyirdi. Hər bir "xalq düşməni"nə "məhkəmə" zamanı ancaq 15 dəqiqə vaxt ayrılırdı (tək-tək hallarda 20 dəqiqə).

İndi qoy oxucu özü 1936-1937-ci illərdə bir saatda nə qədər adamın güllələnməyə məhkum edildiyini, nə qədər zəka sahibinin - azərbaycanlının güllələndiyini özü hesablasın. Bir gündə 24 saat (96 nəfər), ayda 30 gün (2880 nəfər), 2 il yarımda isə 80 000-dən çox.  Bakıda bütün bu quldur tribunal iclaslarını Vışinskinin müavini, bəşər övladının qatili Matuleviç öz əlaltıları Zaryanov və Jiqurla birgə aparırdı. Biz ancaq Bakıdan danışırıq! Kim deyə bilər ki, Azərbaycanın kənd rayonlarında bu fövqəladə üçlüklərin xüsusi iclaslarının qərarları ilə neçə min günahsız məhv edilmişdir? Xüsusi düşərgələrə sürgün edilmiş "xalq düşmənləri"nin ailə üzvlərinin təxmini sayını kim deyə bilər?"

***Ziya Bünyadov,***
***akademik***

"Hənəfi Zeynallı, Yusif Vəzir Çəmənzəminli, Məmməd Cuvarlinski, Ruhulla Axundov kimi güclü və işıqlı insanların nə qədər böyük arzuları ürəklərində boğulub məhv edilmişdi. Neçə-neçə ailə sahibsiz, böyüksüz qalmışdı… Stalinin amansız rejimi, bu rejimin qəddar və qanlı qanunlarını yerinə yetirən məmur və müstəntiqlər, "böyük rəhbər"in "silahdaşlar"ı (o cümlədən bizlərə zərbə vurmaq üçün əlinə fürsət keçmiş ermənilər) dünya durduqca, tarix yaşadıqca nəsillərin mühakiməsindən yaxa qurtara bilməyəcəklər".

***Sani HACIYEV,***
***tarix elmləri doktoru, professor***

Azərbaycan.- 2024.- 2 noyabr (№242).- S.11.